Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

## Bəşir Səfəroğlu- 90

# Qəm dolu ürəyin gülüşü

**Cəmi 44 il yaşamış xalq artisti Bəşir Səfəroğlunun 90 yaşı tamam olur. Azərbaycan teatr tarixində özünəməxsus yeri olan, müxtəlif xarakterlər yaratmaqda bənzərsizliyi ilə seçilən qüdrətli aktyor bu qısa ömründə minbir acının, dərdin əlində çırpınan, əslində qəm dolu gülüşlərin içində yaşayan və tamaşaçılarını qəşş edənəcən güldürməyi bacaran bir sənətkar idi. Onu şəxsən tanıyanlar da, yaratdığı obrazları sadəcə kinofilmlərdə görənlər də həmişə eyni bir fikrin təsdiqində olublar:**

Bəşir Səfəroğlu sənəti əbədidir. O, adicə gülüş ustası deyildir. Təbiətən çox ciddi insan olan Bəşir Səfəroğlu səhnədə qüdrətli komik idi. Yaratdığı surətlərin psixoloji cizgilərini elə ustalıqla "çəkirdi" ki, bir-birindən məzəli obrazları tamaşaçılar tərəfindən təbəssümlə qarşılanardı. Bəşir Səfəroğlunun gülüşü adicə əylənmək üçün deyildi. O, məhz güldürə-güldürə insanı düşündürürdü.

Tamaşaçıların dərin sevgisini qazanaraq elə sağlığında korifeylər sırasında dayanan Bəşir Səfəroğlu əslində çox ağır tale yaşayıb. Tamaşaçıları bir anın içində uğundurmağı bacaran görkəmli aktyor illərlə ağrı-acı içində vurnuxub. Ürəyində neçə ağır dərd lövbər salmışdı. Atasını erkən itirdiyindən onun bütün ümidi, pənahı anası Qızılgül xanım idi. Ana balalarını saxlamaq üçün gecə-gündüz çalışardı. O, Əli Bayramov adına Qadınlar klubunun nəzdindəki tikiş sexində işləyirdi. Balaca Bəşir də tez-tez onun yanına gedər, klubdakı dram dərnəyinin məşqlərinə baxarmış. Elə artist olmaq istəyi də o illərdə qəlbində baş qaldırmışdı. Bəşirin hər gün onların məşqlərinə maraqla tamaşa etməyi dərnəyin rəhbəri Hüseynbala Zeynalovun diqqətini çəkib və onu yanına çağıraraq danışdırıb. Balaca Bəşirin suallara sərrast cavabı onun xoşuna gəlib. Az keçmir ki, Hüseynbala Zeynalov Bəşiri Cəfər Cabbarlının "Sevil" pyesində Gündüz rolunu oynamağa çağırıb. Bu, Bəşir Səfəroğlunu böyük səhnəyə aparan ilk cığır olub. Sonralar o, dənizçilərin mədəniyyət evində fəaliyyət göstərən dram dərnəyinin məşqlərinə gedirdi. Müxtəlif tamaşalarda ara-sıra çıxış edirdi. Günlərin birində "Ölülər" komediyasının səhnə həyatı zamanı rejissor Niyaz Şərifov Bəşirin həmin tamaşadakı rolunu çox bəyənib, onu yanına çağıraraq təbrik edib. O zaman Niyaz Şərifov Musiqili Komediya Teatrında işləyirdi, peşəkar rejissor kimi Bəşirin gələcəyini görürdü.

O vaxt teatr həvəskarı olmasına baxmayaraq, Bəşir sürücü işləyirdi. O, yalnız həvəskar kimi müxtəlif dərnək və klublarda fəaliyyət göstərirdi. Az keçmir ki, aktyorluq qabiliyyəti sənətsevərlərin diqqətini çəkir. O dövrdə həvəskarların hazırladıqları tamaşalara tanınmış ziyalılar, məşhur aktyorlar da baxmağa gələrdilər. Tamaşadan sonra isə bir yerə yığışaraq həvəskarların uğur və nöqsanlarını müzakirə edərdilər. Mirzağa Əliyev, Ağadadaş Qurbanov kimi görkəmli sənətkarlar da bu söhbətlərdə adətən iştirak edər və Bəşirin roluna heyranlıqlarını bildirərdilər. Onlar Bəşirin gülüş yaratmaq qabiliyyətini xüsusi ilə bəyənərdilər. "Sən çox böyük aktyor ola bilərsən" deyənlər də var idi. Amma... Müharibə hər şeyi yarımçıq qoydu. Yüzlərlə soydaşımız kimi, Bəşir Səfəroğlu da (Əslində heç onun savaşa getməyə yaşı da çatmırdı-F.X.) II Dünya Müharibəsinin ağır və alovlu günlərinə qatıldı. Həyatın hər üzünü görən gənc Bəşir müharibə sona yetməmiş qayıtdı. O, iki ildə cəbhədə hansı əziyyətləri çəkmişdi, hansı döyüşlərdə iştirak etmişdi, bir kəlmə də olsun söyləmədi. Anasının boynuna dolanan qollarının, üzgözünə toxunan dodaqlarının hərarətindən kövrəlsə də, danışmadı. Bəlkə də indi çoxu bilmir ki, Bəşir müharibədən lal və kar qayıtmışdı. Bu hadisənin ağır təsirindən onun könlü gülmürdü, qaşqabağı açılmırdı.

Onu teatra işə götürsələr də eşitmə və nitq duyğusunu itirməsi ürəyindən ağır dərd kimi asılmışdı. Bəs necə olmuşdu ki, onu bu vəziyyətdə yaradıcı heyətə qəbul etmişdilər? Hələ müharibədən əvvəl Bəşirin istedadına valeh olmuş rejissor Niyaz Şərifov müşahidə edib ki, bir cavan oğlan tez-tez Musiqili Komediya Teatrının qarşısında saatlarla dayanır. Səbəbini öyrənmək məqsədilə ona yaxınlaşdıqda heyrətə gəlib. Dərin fikrə getmiş Bəşir Səfəroğlu



onun çağırışına məhəl qoymadan gözünü teatrın qapısından çəkmirdi. Onun bu pərişan halı rejissoru bərk sarsıdıb. Necə olursa-olsun gənc oğlana kömək etmək qərarına gəlib. Bəşiri birtəhər dilə tutaraq teatrın tamaşalarına baxmağı məsləhət görüb. Günlərin birində isə onu truppaya qəbul etdilər. Bəşir ən böyük arzusuna çatsa da, bu şad xəbər onu heç də sevindirmədi. Bütün istəyi, hörməti mərhəmət kimi qəbul etdiyindən hər şey onu sıxırdı. Bəşirin ürəyi partlamaq dərəcəsinə çatırdı. Ona hərdən elə gəlirdi ki, eşidir. Bir-birini çuğlamış səslərin ahəngində bir səda onu lap dəli edirdi: bu, həsrətin çəkdiyi tamaşaçı alqışı idi. Günlərin birində isə keçirdiyi bir vahiməli hissin təsirindən dili açılıb və eşitmə qabiliyyəti bərpa olub. Beləliklə, yaşasın həyat, yaşasın səhnə!..

Bəşir Səfəroğlu Musiqili Komediya Teatrı üçün bir hadisə, bir tapıntı idi. Xatırladaq ki, Azərbaycan səhnəsinin qüdrətli aktyor sarıdan korluğu olmayıb. O vaxt Lütfəli Abdullayev, Əlihüseyn Qafarlı, Əliağa Ağayev, Nəsibə Zeynalova kimi nəhənglər var idi. Elə istedadın yiyəsi olmalıydın ki, onu roldan-rola işlətdikcə tükənməsin, əslində daha da zənginləşsin. Bir çətinlik də vardı ki, Bəşir Səfəroğlu nəinki professional təhsil almışdı, heç orta məktəbi də əməlli-başlı oxumamışdı. Bütün bunlara baxmayaraq, Bəşir Səfəroğlu sənətin elə zirvəsini fəth etdi ki, hamının fikri bir məqsədə yönəldi: " O, anadan aktyor doğulub."

Təbii ki, Bəşirə qədər də, sonra da onun ifa etdiyi rolları başqa aktyorlar oynayıb. Bəlkə aralarında mahir ifaçıları da olub. Etiraf edək, hələ ki, o obrazların heç biri Bəşirin təqdimatındakı kimi dadlı-duzlu alınmayıb. Çünki Bəşir Səfəroğlu rolları sadəcə oynamırdı, özünün nəfəsini, gülüşünü, yerişini, gəlişini, baxışını, bir sözlə, öz üslubunu, məxsusluğunu bəxş edərək yaradırdı. Buna görə də səhnə ömrü verdiyi Uzun ("Toy kimindir"), Salyanski (" Gözün aydın"), Hacı Kərim ("Hacı Kərimin Aya səyahəti"), Məşədi İbad ("O olmasın, bu olsun"), Baləmi ( "Rəisin arvadı"), Polis ("Milyonçunun dilənçi oğlu"), Gülümsərov (" Ulduz"), Sərxoş ( " Əhməd haradadır?") və başqaları bu gün də unudulmur.

Cavan ikən qoca Hacıların obrazlarını məharətlə yaradan bu dahi sənətkar, təəssüf ki, çox az yaşadı. Onun səhnə fəaliyyətinin ünvanlarını araşdıran da görürsən ki, Bəşir Səfəroğlu böyük səhnəyə gəldiyi gündən Musiqili Komediya Teatrına bağlı, onun abı-havası ilə nəfəs alan çox sədaqətli, iradəli, qətiyyətli, sözübütöv şəxsiyyət olub. Ömrünün son çağlarında "Gəlməli, görməli, gülməli, kimi miniatür teatrda da maraqlı, məzəli, yaddaqalan obrazlar yaradıb. Elə bu teatrın adının seçilməsinin müəllifi də Bəşir Səfəroğlunun özü olub. "Bizə bircə xal lazımdır" musiqili komediyasının libretto müəlliflərindən biridir. Onun vəfatı ilə bağlı hazırlanmış nekroloqda yazırdılar: " Səhnəmiz gözəl bir komiki itirdi. Bəşir Səfəroğlu gözəl bir aktyor məlahətinə malik, oyunlarında səhnə gerçəkliyinə riayət edən sənətkar idi..."

Yaratdığı klassik obrazlarla teatr tariximizdə özünəməxsus yer tutan Bəşir Səfəroğlu kinofilmlərə də çəkilib. "Ulduz" , "Əhməd haradadır?", "Xoca Nəsrəddinin 12 qəbri" və.s filmlərdə yaratdığı obrazlar həm kino sənətinin, həm də tamaşaçı yaddaşının solmayan çiçəkləridir. Elə tamaşa, elə film var ki, aktyorun yaratdığı obrazın səhnə görünüşü bir dəqiqəlikdir, yəni epizodikdir. Amma böyük sənətkarın məharəti o kiçik surəti baş rol səviyyəsinə qaldırıb. Deyək ki, Bəşir Səfəroğlunun bu rollarında çox vaxt elə də söz bolluğu olmur. Di gəl, bu aktyorun baxışı da, yerişi də min sözün təsirindən qüvvətli olurdu. Bu baxımdan "Tacikfilm"in çəkdiyi "Xoca Nəsrəddinin 12 qəbri" maraq doğururdu. Bu film keçmiş SSRİ-nin bütün respublikalarında nümayiş olunmuşdu. Azərbaycan aktyorunun yaratdığı Xoca Nəsrəddin öz təbiiliyi ilə diqqət çəkirdi. Mətbuatda (1967-ci il) Bəşir Səfəroğlu haqqında dərc edilmiş resenziyalarda onun yaratdığı bu rolun məziyyətləri təhlil edilirdi. Filmə baxanlar təsdiqləyirdilər ki, burada sözdən çox hərəkət, dinamika var. Bəşir Səfəroğlu səhnəyə gələn gündən sevilib. Ona rəğbət gətirən, sevdirən, bir daha təkrar edirik, yerişi, duruşu, baxışı idi. Bəşirin sükutundan belə, gülüş, qəhqəhə yaranırdı.



Flora XƏLİLZADƏ,
əməkdar jurnalist

44 yaşında dünyasını dəyişən unudulmaz aktyorumuzun övladı , xalq artisti Afaq Bəşirqızı uzun illərdir ki, atasının yolunu ləyaqətlə davam etdirir. O, Bəşir Səfəroğlu haqqında həmişə kövrələ-kövrələ danışır. Təsirli bir söhbətini heç unutmuram: "Atam xalq artisti fəxri adının sevincini cəmi yeddi ay yaşadı. Özü də bəxtiyarlıq, rahatlıq içində yox, ağır xəstəliyin caynağında əriyə-əriyə. Sonradan bilmişəm ki, səhnədə tamaşaçılara sevinc bəxş edən, onları ürəkdən güldürən Bəşir Səfəroğluna pərdə arxasında iynə vururlarmış. Bu iynələrin gücünə də rolunu tamamlayarmış. Bilirdim ki, atam xəstədir. Ağlıma dəhşətli heç nə gətirmirdim, çünki qonum-qonşuda o qədər adam azarlayıb sağalırdı ki... Necə başa düşəydim ki, onun mədəsini dağıdan xərçəng məni də yetim qoyacaq. Atam mənim adımı sol əlinin üstünə yazmışdı. "Hər şeyimi sənə qoyub gedirəm, bircə adını özümlə aparacağam" demişdi. Görünür, atam əslində adıma möhür vururmuş, sənətimə imza atırmış. O mənim adımla getdi, mən onun adıyla yaşadım. Sənətkar övladı olmaq şərəfli olduğu qədər də çətindir. Mən Bəşir qızı olduğumu heç vaxt unutmadım."

Bəşir Səfəroğlu bu gün könül yadigarı Afaq xanımın sənətində, yaradıcılığında, soyadında yaşayır. Məhz Afaqın baxışları, təbəssümləri, komik məqamları yaratmaq məharətilə tamaşaçıların görüşünə gələrək ovqatlarını açır, onlara mənalı gülüşlər bəxş edir. Ən fərəhlisi də budur ki, Afaq xanımın nəvəsi Bəşir adını daşıdığı böyük sənətkarın saldığı yolda kövrək addımlarını atmaqdadır. Deməli, Bəşir Səfəroğlunun ötən əsrdə yandırdığı işıqlar bu gün də gur yanır.

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***